# Azərbaycan-Gürcüstan əlaqələrinin inkişafında parlament diplomatiyasının mühüm rolu var



Azərbaycan ilə Gürcüstan arasında münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin mühüm rolu var. Bu fikir Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun ölkəmizdə səfərdə olan Gürcüstanın xarici işlər naziri Mixeil Canelidze ilə görüşündə səsləndirilib. Azərbaycan ilə Gürcüstanın tarixi dostluq münasibətlərindən danışan Milli Məclisin Sədri deyib ki, ölkələrimiz müstəqilliyini bərpa etdikdən sonra əməkdaşlıq yeni müstəvidə inkişaf edir. Oqtay Əsədov münasibətlərin daha da möhkəmləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin və görüşlərin, birgə həyata keçirilən beynəlxalq layihələrin əhəmiyyətini vurğulayıb.

Azərbaycana səfərindən məmnunluğunu bildirən Gürcüstanın xarici işlər naziri Mixeil Canelidze Bakıda bir sıra vacib görüşlər keçirdiyini, ikitərəfli, regional və çoxtərəfli əməkdaşlığa dair faydalı müzakirələr aparıldığını söyləyib. Ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdiyini deyən nazir bu məsələdə parlament diplomatiyasının rolunu vurğulayıb. O, əlaqələrin daha da genişləndirilməsinin tərəflər üçün faydalı olduğunu bildirib.

***AZƏRTAC***

***Foto Fərman BAĞIROVUNDUR***